# İdman xəbərləri

## İdmançımız Azərbaycan kubokunun qalibi oldu



"Qəbələ" İdman Klubunun təmsilçisi Sənan Şükürov növbəti uğuruna imza atıb. İdmançımız Qol Güləşi üzrə Azərbaycan kubokunda fərqlənib. O, 80 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Bütün rəqiblərini məğlub edən Şükürov ölkə kubokunun qalibi adını qazanıb.

## «Qəbələ» Azərbaycan kubokuna qələbə ilə start verib



"Qəbələ" Azərbaycan kubokunda 2018-2019-cu illər mövsümünə start verib. "Qırmızı-qaralar" 1/4 final mərhələsindən mübarizəyə başlayıb. Sənan Qurbanovun baş məşqçisi olduğu komanda "Sabah"la ilk oyunu öz meydanında keçirib.

Qarşılıqlı hücumlarla başlayan oyunun gedişində "Qəbələ"nin hücumları daha kəsərli alınıb. Nəticədə qonaqların qapısı önündə daha çox qol epizodu yaranıb.

Cərimə meydanında irəliləyib topu komanda yoldaşına göndərən Ceyms Adeniyinin ötürməsini rəqib müdafiəçi qapayıb və Filip İvanoviçin avtoqolu ilə matçda hesab açılıb - 1:0.

Beləliklə, "Qəbələ" Azərbaycan kubokunda mübarizəyə 1:0 hesablı qələbə ilə başlayıb.

## Uşaqlar üçün yeni tamaşa

Qəbələ Xalq Teatrı məktəblilərin qış tətili günlərinin səmərəli keçməsi üçün Azərbaycan xalq nağılı əsasında "Göyçək Fatma" adlı nağıl-tamaşa hazırlayıb. Tamaşa Yeni il bayramı ərəfəsində məktəblilərə təqdim olunub.

Nağıl-tamaşanın quruluşçu rejissoru Müsavər Qasımovdur.

Tamaşada əsas rolları Elşən Salehov, Aytən Rəhimova, Xəyal Gəncimov, Səbinə Sabirli və başqaları ifa etmişlər.

**Süsən RÜSTƏMLİ,**
**şəhər 4 nömrəli məktəbin şagirdi.**

## Qalaktikalara yayılan güclü işıq seli tədqiq olunur

Astronomlar nəhəng ölçüdə qara dəlikdən güclü küləyin kainata doğru gətirdiyi geniş işıq selini müşahidə ediblər.



AZƏRTAC "Science News" elmi portalına istinadla xəbər verir ki, Çilidəki "Atakama" rəsədxanasında aparılan müşahidələr zamanı "Kvazar" adlanan qara dəlikdən əsən şiddətli küləyin gözqamaşdırıcı işıq seli gətirdiyi müşahidə edilib. Külək 228 000 işıq ili məsafəyə yayılıb. Bundan əvvəl astronomlar tərəfindən cəmi 3 000 işıq ili məsafəsində hiss olunan külək qeydə alınıb.

Qara dəlikdən çıxan güclü külək və işıq selini, habelə onun içərisindəki temperaturu və maqnit sahəsini Şarlottesvil Milli Rəsədxanasındakı astronomlar da tədqiq edirlər.

Alimlər, əlavə olaraq, güclü küləyin gətirdiyi işıq selinin qalaktikalara, o cümlədən bizim kainata da təsirini öyrənirlər. Bu tədqiqatlarda ən maraqlı məqam qara dəlikdən çıxan qazların yeni ulduzları formalaşdırması və qalaktikaları daha da genişləndirməsidir. Deformasiyaya uğrayacaq bəzi qalaktikaların həcminin isə Günəşin ölçüsündən 10 trilyon dəfə böyük olduğu bildirilir. Küləyin və işıq selinin daşıdığı enerjinin həcmi və çatacağı son məsafəni dəqiqləşdirmək də nəzəri cəhətdən mümkün hesab olunur.

## İTMİŞDİR

DİN BDYRİ-nin Şəki regional qeydiyyat-imtahan və texniki baxış şöbəsi tərəfindən Qəbələ şəhər sakini **Osmanov Elvin Namət oğluna** 17 sentyabr 2014-cü il tarixdə verilmiş AE seriyalı 710764 nömrəli «BC» kateqoriyalı **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Eyvazov Arif Məsim oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 934 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

ARƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən **Tövlə Bələdiyyəsinə** 21 fevral 2014-cü il tarixdə verilmiş RX seriyalı 0316850 nömrəli (qeydiyyat nömrəsi 1914001267) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət qeyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

## Məşhurların hazırcavablığı

Böyük təbiətşünas alim Çarlz Darvin bir dəfə ziyafətdə yanında əyləşmiş bir xanıma nəzakət xatirinə deyir:

–Siz çox gözəlsiniz. Hamı sizə valeh olur.

–Mən isə sizi belə tərif edə bilməyəcəyəm, axı siz buna layiq deyilsiniz–deyə xanım Darvinə cavab verir.

Darvin özünü itirmədən deyir:

–Doğrudur, xanım, ancaq siz də mənim kimi yalan danışa bilərdiniz.

* * *

Məşhur ingilis yazıçısı Bernard Şou çox arıq olub. Həddindən artıq kök olan bir nəfər ona baxaraq deyir:

–Siz elə görünürsünüz ki, elə bil İngiltərə aclıq çəkir.

–Sizə baxdıqda isə elə fikirləşmək olar ki, İngiltərənin yoxsul olmasına siz səbəbsiniz–deyə Şou cavab verir.

* * *

Görkəmli alman rəssamı Adolf Mentsel (1815–1905) bərbərxanaya gəlib kresloya oturur. Müştəriləri həmişə öz söhbəti ilə məşğul edən bərbər rəssamdan soruşur:

–Saçınızı necə burmaq lazımdır?

–Səssiz-səmirsiz–deyə rəssam cavab verir.

**Topladı: Qadir SƏMƏDLİ,**
**şəhər 2 nömrəli məktəbin şagirdi.**


«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56

QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2019-cu ilin birinci yarısı üçün abunə yazılışı davam edir
Yarımillik abunə qiyməti 15 manatdır.
Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.
Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.



Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1847*